**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ AVROPA PARLAMENT ƏLAQƏLƏRİ SİSTEMİNDƏ (1991-2005-ci illər)

İxtisas: 5502.01 – Ümumi tarix

Elm sahəsi: Tarix

**İddiaçı: Kəmalə Zahir qızı Həsənova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü, professor
**Musa Cəfər oğlu Qasımlı**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, professor
**Şirxan Dadaş oğlu Səlimov**
Tarix üzrə fəlsədə doktoru, dosent
**Sübhan Ələkbər oğlu Talıblı**
Tarix üzrə fəlsəfə dotoru
**Sevil Cəlal qızı Heydərova**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:**

_____________ tarix üzrə elmlər doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

**Dissertasiya şurasının elmi katibi:**

____________ tarix üzrə fəlsəfə doktoru
**Kəmalə Telman qızı Nəcəfova**

**Elmi seminarın sədri:**

___________ tarix üzrə elmlər doktoru
**Lalə Cavid qızı Hüseynova**

# I.DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və öyrənilmə dərəcəsi.** Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası dünya birliyinin bərabərhüquqlu üzvü kimi Avropa məkanına inteqrasiya olunmaq mövqeyindən çıxış edərək qitənin və dünyanın ən nüfuzlu parlament təşkilatları olan – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası, Parlamentlərarası İttifaq, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilati Parlament Məclisi, Avropa Şurası Parlament Assambleyası, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası, Avropa Parlamenti və NATO Parlament Assambleyası ilə qarşılıqlı əlaqələr qurmağa başladı. Azərbaycan Respublikasının Milli Məclisi dövlətin xarici siyasətinin həyata keçirilməsinə parlament diplomatiyası yolu ilə öz töhfəsini vermək üçün geniş işlər gördü. Bununla əlaqədar olaraq Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev deyirdi: *"...Milli Məclis Azərbaycan dövlətinin xarici siyasətinin həyata keçirilməsində də parlamentlərarası əlaqələr vasitəsilə, başqa vasitələrlə bizim ümumi işimizə öz payını vermişdir."*[1]

Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının üçüncü bölməsinin beşinci fəslində təsbit edilmişdir. [2] Azərbaycan parlament diplomatiyasının başlıca məqsədi dövlət müstəqilliyini möhkəmləndirmək, qanunvericilik təcrübəsini, insan hüquq və azadlıqlarının qorunması məqsədi ilə qarşılıqlı təcrübə mübadiləsini aparmaq, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün parlament təşkilatlarının dəstəyini qazanmaq olmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin Avropa parlament təşkilatları ilə əməkdaşlığının qurulmasının, keçilən yolun, nəticələrin araşdırılması və perspektivlərinin müəyyənləşdirilməsi həm elmi-tarixi, həm də

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.32. – 2010. – s.163-171.

[2] Azərbaycan Respublikasının Konstitusiyası (Əsas qanunu) / – Bakı: Hüquq yayın evi, – 2017. – s. 31.

praktiki siyasət baxımdan aktuallıq kəsb etdiyindən Azərbaycan tarix elminin qarşısında dayanan mühüm vəzifələrdən biridir.

Tədqiq edilən illərdə Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq fəaliyyətində vacib yer tutan və əməkdaşlıq etdiyi parlament təşkilatlarından biri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası olmuşdur. Məlum olduğu kimi, müasir beynəlxalq parlament təşkilatları sistemində mühüm rol oynayan ATƏT PA ilə əməkdaşlıq inteqrasiya proseslərinin inkişafı, milli qanunvericiliyin təkmilləşdirilməsi, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində fəaliyyət baxımından əhəmiyyətlidir. Münaqişənin dinc yollarla həlli ilə 1992-ci ilin mart ayından fəaliyyət göstərən ATƏT-in Minsk qrupu məşğul olsa da, qəbul edilən qərarları uzun illər boyu kağız üzərində qalmışdır. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: *“Münaqişənin həlli üçün atılacaq addımları aydın şəkildə müəyyən edən ATƏT-in qərarları, xüsusən də Lissabon zirvə görüşünün qərarları da kağız üzərində qalır.”*[3]

Azərbaycan parlament nümayəndə heyəti bu kürsüdən istifadə edərək həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına çalışmışdır. Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin ATƏT PA-da bu istiqamətdə fəaliyyətinin tədqiq edilməsi problemin araşdırılmasının aktuallığını şərtləndirən amillərdən biridir.

Milli Məclisin qurucusu olduğu Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisində nümayəndə heyəti tədqiq edilən illərdə ticarət, nəqliyyat, enerji, informasiya-kommunikasiya texnologiyaları, ekologiya, siyasi, hüquq, elm, təhsil mədəniyyət və digər komitələrin işində fəal iştirak etmişdir. Həmin məsələlərin dərindən araşdırılması, keçilən yolun və toplanan tarixi təcrübənin ümumiləşdirilməsi də elmi aktuallıq kəsb edir.

Milli Məclisin üzv olduğu və əməkdaşlıq etdiyi parlament təşkilatlarından biri də MDB-nin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasıdır. Azərbaycan Respublikası MDB-yə 1991-ci il Alma-Ata bəyannaməsi ilə qoşulsa da, 1993-cü ildə

[3] Əliyev, İ.H. İnkişaf – məqsədimizdir: [63 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, – c.63. – 2018. – s. 282-292.

təşkilata üzv oldu. Azərbaycan təşkilat çərçivəsində müstəqilliyini möhkəmləndirməklə qarşılıqlı faydalı əməkdaşlıq etmək məqsədi güdürdü. Bu təşkilatla münasibətlərin qurulması, əməkdaşlığın başlıca istiqamətlərinin və məqsədlərinin araşdırılması da tarixşünaslıq baxımından aktualdır.

Milli Məclisin üzv olduğu və əməkdaşlıq etdiyi təşkilatlardan biri əvvəlcə Avropa ölkələrinin parlament təşkilatı kimi qurulan, sonra isə beynəlxalq parlament təşkilatına çevrilən Parlamentlərarası İttifaq olmuşdur. Həmin təşkilatla münasibətlərdə keçilən yolun dərindən araşdırılması əhəmiyyətlidir.

Tədqiq edilən illərdə Milli Məclisin Avropanın parlament təşkilatları ilə əməkdaşlığında başlıca məqsədlərdən biri hüquqi islahatların aparılması, qanunvericilik sisteminin təkmilləşdirilməsi və həmin sahədə təcrübə mübadiləsidir. Bu baxımdan AŞPA ilə əməkdaşlıq başlıca rol oynamışdır. Azərbaycan Respublikası Avropa Şurasına üzv olmaqla parlament demokratiyasının daha da inkişaf etdiyi ölkələrdən birinə çevrildi. Milli Məclisin nümayəndə heyətinin səyləri nəticəsində Ermənistanın hərbi təcavüzünün gedişi və nəticələrinə dair sənədlər AŞPA-da yayılmış, qətnamələrin qəbul edilməsinə nail olunmuşdur. AŞPA ilə əməkdaşlıqda qazanılan təcrübənin öyrənilməsi, elmi-nəzəri ümumiləşdirmələrin aparılması və perspektivlərinin müəyyənləşdirilməsi də vacibdir.

Azərbaycan Respublikası Milli Məclisinin əlaqələr saxladığı parlament təşkilatlarından biri NATO Parlament Assambleyası olmuşdur. 1999-cu ildən etibarən Azərbaycan parlamentariləri NATO PA-nın toplantılarında iştirak edərək terrorizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq, müdafiə sahəsində islahatlar, silahlı qüvvələrin NATO standartlarına uyğun qurulması, NATO-nun təhlükəsizlik sahəsində rolu da daxil olmaqla Transatlantik təhlükəsizlik məsələlərinin müzakirələrində iştirak etməklə Azərbaycan Respublikası və NATO arasında əməkdaşlığın inkişafına çalışmışlar. Həmin məsələlərin araşdırılması, təcrübənin öyrənilməsi və nəticələrin çıxarılması da əhəmiyyətlidir.

Azərbaycanın əməkdaşlıq etdiyi parlament təşkilatlarından biri Avropa Parlamenti olmuşdur. Azərbaycan Respublikası Avropa İttifaqının TACİS, TEMPUS, İNOGEYT, TRASECA, Cənub Qaz

Dəhlizi layihələrində iştirak edir. Bu təşkilatla münasibətlərin inkişafı 2004-cü ildə Azərbaycan Respublikasının təşkilatın "Yeni Qonşuluq Siyasəti" proqramına qoşulması ilə nəticələndi. Azərbaycan Respublikası Avropa İttifaqının qonşusuna çevrildi. Bu məsələnin reallaşdırılmasında Milli Məclis və Avropa Parlamenti arasında əməkdaşlıq özünəməxsus rol oynadı. Azərbaycan Respublikası Milli Məclisi və Avropa Parlamenti arasında əlaqələrin qurulması, inkişaf dinamikasının və problemlərinin tədqiq edilməsi də aktual məsələlərdən biridir.

Ümumiyyətlə, yuxarıda qeyd edilən amillər bir daha göstərir ki, Azərbaycan Respublikası Milli Məclisinin Avropa parlament əlaqələri sistemində iştirakı, yeri və rolunun kompleks tədqiq edilməsi, ümumiləşdirilmiş nəticələrin çıxarılması mühüm elmi tarixi, nəzəri, siyasi əhəmiyyət kəsb edir və araşdırılması aktualdır.

Dissertasiya işi yazılarkən Azərbaycan, rus, ingilis və b. dillərdə nəşr edilmiş əsərlərdən geniş istifadə edilmişdir. İlk növbədə, Milli Məclisin nəşr etdirdiyi kitabları qeyd etmək lazımdır. Həmin kitablarda Azərbaycan Respublikasının AŞPA, QİƏT PM, MDB PA və b. ilə əlaqələri ümumi şəkildə şərh edilmiş, qanunvericilik sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq problemlərinə dair çoxlu fakt və materiallar toplanmışdır.[4]

Azərbaycan parlamentinin beynəlxalq parlament təşkilatların işində iştirakına həsr edilmiş ilk əsər N.Axundov və M.Qasımovun (Qasımlı) kitabıdır.[5] Əsərdə beynəlxalq parlament təşkilatlarının ümumi səciyyəsi, səlahiyyətləri, tərkibi, fəaliyyətinin təşkili, quruluşu, onların xarici əlaqələri, Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq və regional parlament təşkilatlarının işində iştirakı araşdırılmış və bəzi ümumiləşdirilmələr aparılmışdır.

---

[4] Müstəqil dövlətimiz və parlamentimiz / – Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, – 2001. – 552 s.; Heydər Əliyev və Azərbaycan parlamenti / – Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, – 2004. – 240 s.; Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar / – Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, – 2004. – 542 s.; Parlament tariximizin Heydər Əliyev dövrü / – Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, – 2013. – 559 s.

[5] Axundov N. Azərbaycan və beynəlxalq parlament təşkilatları / N.Axundov, M.Qasımlı. – Bakı: Mütərcim, – 1996. – 88 s.

M.Qasımlı və B.Muradova tərəfindən bilavasitə mötəbər arxiv materialları və sənədli mənbələr əsasında yazılmış iki cildlik əsərin ikinci cildində beynəlxalq parlament təşkilatları ilə əməkdaşlıq məsələləri araşdırılmış, ATƏT PA, AŞPA, NATO PA, AP, MDB PA və b. ilə əlaqələr xronoloji ardıcıllıqla tədqiq edilmişdir.[6]

Qeyd etmək lazımdır ki, Azərbaycan tarix və siyasi elmlərində Azərbaycan Respublikasının beynəlxalq parlament təşkilatları ilə əlaqələrinin qurulması, inkişafı, Avropa inteqrasiya proseslərinə qoşulması məsələlərinin bu və ya digər tərəflərinə həsr edilmiş bəzi əsərlər nəşr olunmuşdur. Həmin əsərlərdə beynəlxalq parlament təşkilatlarının yaranması, onların fəaliyyətinin ayrı-ayrı tərəfləri, müasir dünya sisteminin başlıca istiqamətləri, ATƏT PA, MDB PA, QİƏT PM, Pİ, AŞPA, Avropa Parlamenti, NATO PA ilə əməkdaşlıq məsələlərinə toxunulsa da, Milli Məclisin Avropa parlament təşkilatları ilə əlaqələr sistemində tutduğu yer, oynadığı rol, əməkdaşlığın başlıca istiqamətləri, gedişi və nəticələri kompleks şəkildə tədqiq edilməmişdir.

S.M.İmanovanın dissertasiya [7] işində və eyni adlı monoqrafiyasında[8] Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əlaqələri araşdırılmışdır.

T.E.Hacıyevanın dissertasiya işində 1993-2008-ci illərdə Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsində Milli Məclisin fəaliyyəti tədqiq edilmişdir.[9]

H.Rəcəbli və V.İbayevin əsərlərində AŞPA-nın yaradılması, səlahiyyətləri və fəaliyyət istiqamətləri, QİƏT PA, ATƏT PA və AŞPA haqqında məlumatlar verilmişdir. [10]

---

6 Qasımlı, M. Azərbaycan parlamentarizmi tarixi: [2 cilddə] / M.Qasımlı, B.Muradova, V.Qafarov. – Bakı: Mütərcim, – c.1. – 2018. – 688 s.; – c.2. – 2018. – 680 s.

7 İmanova S.M.Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əlaqələri(1991-1998-ci illər) / S.M.İmanova. – Bakı:Adiloğlu, 2004– 172 s.

8 İmanova S.M.Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əlaqələri(1991-1998-ci illər) / Tarix üzrə fəlsəfə doktoru dissertasiyası/– Bakı, 2001. – 158 s.

9 Hacıyeva, T.E. Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsində Milli Məclisin fəaliyyəti (1993-2008) / Tarix üzrə fəlsəfə doktoru dissertasiyası/ – Bakı, 2014. – 157 s.

Avropa Şurasının yaranması, fəaliyyəti, inkişafı, Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması, təşkilatın sessiyalarında iştirakı, demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq məsələlərindən A.Vəliyevin kitabında şərh olunmuşdur.[11]

Azərbaycan Respublikasının Avropa Şurası ilə əməkdaşlığının əsas istiqamətləri, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində AŞPA-nın rolu, münaqişəyə dair təşkilatın qəbul etdiyi tövsiyə və qətnamələr ümumi şəkildə Ü.İmaməliyevanın kitabında[12] və dissertasiya işində[13] şərh edilmişdir.

S.Yusifovanın [14] əsərində AŞPA-nın yaranması, strukruru, fəaliyyətinə dair məlumatlar, 2001-2005-ci illərdə Azərbaycan nümayəndə heyətinin bu təşkilatdakı fəaliyyətinin bəzi tərəfləri araşdırılmışdır.

B.Muradovanın dissertasiya işində[15] Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində ATƏT-in rolu, Q.Paşayevanın doktorluq dissertasiyasında [16] isə münaqişənin Avropa təhlükəsizliyinə törətdiyi təhdidlər araşdırılmışdır.

---

10 Rəcəbli, H. Avropa Şurası / H.Rəcəbli, V.İbayev. – Bakı: Elm, – 1999. – 118 s.; Yenə onun. Avropa beynəlxalq təşkilatları / H.Rəcəbli, V.İbayev. – Bakı: Qanun, – 1999. – 118 s.

11 Vəliyev, A. Avropa Şurası – Azərbaycan: demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq / A.Vəliyev. – Bakı: Elm, – 2006. – 236 s.

12 İmaməliyeva, Ü.M. Azərbaycanın Avropa Şurası ilə əlaqələri: siyasi əməkdaşlığın istiqamətləri / Ü.M.İmaməliyeva. – Bakı: Şirvannəşr, – 2007. – 166s.

13 İmaməliyeva, Ü.M. Azərbaycanın Avropa Şurası ilə əlaqələri: siyasi əməkdaşlığın istiqamətləri / Siyasi elmlər üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı / – Bakı: 2008. – 21 s.

14 Yusifova, S. Azərbaycan və Avropa Şurası / S.Yusifova. – Bakı: Bakı Avrasiya press, – 2009. – 240 s.

15 Muradova, B.Ə. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ATƏT-in rolu: / Siyasi elmlər üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı/ – Bakı, 2009. – 26 s.

16 Paşayeva, Q.Ə. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Avropa təhlükəsizliyinə başlıca təhdid kimi: /Siyasi elmlər üzrə doktorluq dissertasiyasının avtoreferatı / – Bakı, 2015. – 53 s.

M.Qasımlının ən mötəbər arxiv mənbələri əsasında yazdığı "Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003)" adlı iki hissədən ibarət olan monoqrafiyasında Azərbaycan Respublikasının beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində tutduğu yer, beynəlxalq təşkilatlarla münasibətlərin başlıca istiqamətləri tədqiq edilmişdir. Lakin bu əsərlərdə Avropa parlament əlaqələri sistemində Azərbaycan Respublikası Milli Məclisinin yeri öyrənilməmişdir. [17]

Ə.Həsənovun əsərlərində Azərbaycan Respublikasının xarici siyasət strategiyası, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın təhlükəsizlik problemləri və beynəlxalq təşkilatlarla münasibətləri təhlükəsizlik aspektindən araşdırılmışdır.[18]

H.Hüseynova, H.Babaoğlunun əsərlərində Azərbaycan Respublikasının Avropa inteqrasiya proseslərinə qoşulması, o cümlədən AŞPA, NATO ilə münasibətləri öyrənilmiş, lakin beynəlxalq parlament təşkilatları ilə əlaqələr tədqiqat obyekti olmamış, qarşılıqlı əlaqələr ümumi şəkildə araşdırılmışdır. [19]

E.Əhmədov, A.Abbasbəyli və Ə.Həsənovun əsərində ATƏT-in Minsk qrupunun fəaliyyəti xronoloji ardıcıllıqla öyrənilmiş, münaqişənin tənzimlənməsi istiqamətində Azərbaycan dövlətinin səylərinə geniş yer verilsə də, beynəlxalq parlament təşkilatları ilə əlaqələrə toxunulmamışdır.[20]

---

[17] Qasımlı, M.C. Azərbaycanın xarici siyasəti (1991-2003): [2 cilddə] / M.C.Qasımlı. – Bakı: Mütərcim, –c.1. – 2015. – 648 s; – c.2. –2015. – 664 s.

[18] Həsənov, Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti / Ə.M.Həsənov. – Bakı: Azərbaycan nəşriyyatı, – 2005. – 752 s.; Yenə onun. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti / Ə.M.Həsənov. – Bakı: Letterpress, – 2011. – 440 s.; Yenə onun. Azərbaycan və ATƏT: Ermənistan – Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda / Ə.M.Həsənov. – Bakı: İşıq, – 1997. – 82 s.

[19] Hüseynova, H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində / H.K.Hüseynova. – Bakı: Hərbi Nəşriyyat, – 1998. – 280 s.; Yenə onun. Müasir inteqrasiya prosesləri / H.K.Hüseynova. – Bakı: – 2010. – 263 s.; Babaoğlu, H. Dünya siyasəti və beynəlxalq münasibətlər / H.Babaoğlu. – Bakı: Çinar – Çap, – 2010. – 568 s.

[20] Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar / – Bakı: Tuna, – 1998. – 137 s.; Аббасбейли, А. Азербайджан в системе международных и региональных организаций / А.Аббасбейли, А.Гасанов. – Баку: Азернешр, – 1999. – 250 с.

Dissertasiya işinin yazılmasında A.Abbasovun, C.Sumərinlinin, M.Məmmədov və E.İbadovun əsərlərindən [21] istifadə edilmişdir. Həmin əsərlərdə Azərbaycan Respublikasının MDB ilə münasibətləri, Azərbaycan – NATO əməkdaşlığının başlıca istiqamətləri araşdırılmışdır.

Bütün bunlarla yanaşı, A.Abbasbəyli, A.Piriyev, Ə.Əliyev, Ə.Abdullayev, N.Məmmədov, M.Haqverdiyev, H.Abdallı, M.İsmayıl, A.V.Səmədov və digərlərinin əsərlərində[22] Azərbaycan Respublikasının Avropa inteqrasiya proseslərinə qoşulması istiqamətində fəaliyyəti öz əksini tapsa da, Milli Məclisin Avropa parlament əlaqələri sistemində tutduğu yer və oynadığı rol tədqiq edilməmişdir.

Dissertasiya işinin müəllifi K.Z.Həsənovanın Azərbaycanda və xaricdə çap olunmuş elmi məqalələrində[23] xarici siyasət sənədləri və

---

[21] Abbasov, A. Bir-birindən asılı dövlətlər birliyi / A.Abbasov. – Bakı: Bakı Slavyan Universiteti: Kitab aləmi NPM, – 2005. – 326 s.; Sumərinli, C. İrəliyə NATO-ya doğru / C.Sumərinli. – Bakı: Əbilov Zeynalov və oğulları, – 2007. – 158 s.; Məmmədov, M. Beynəlxalq iqtisadi təşkilatlar / M.Məmmədov, E.İbadov. – Bakı: CBS, – 2008. – 246 s.

[22] Abbasbəyli, A.N. Dünya siyasəti. (XX əsrin ikinci - yarısı XXI əsrin əvvəlləri) / A.N.Abbasbəyli. – Bakı: Nurlar Nəşriyyat - Poliqrafiya Mərkəzi, – 2011. – 584 s.; Piriyev, A. Siyasi strategiya və milli təhlükəsizlik problemi / A.Piriyev. – Bakı: BDU, – 2002. – 534 s.; Əliyev, Ə. İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi /Ə.Əliyev. – Bakı: NAT MMC, – 2009. – 490 s.; Abdullayev, Ə. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq tarixindən bəzi məqamlar / Ə.Abdullayev. – Bakı: İqtisad Universiteti Nəşriyyatı, – 2011. – 447 s.; Məmmədov, N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış / N.Məmmədov. – Bakı: Qanun nəşriyyatı, – 2013. – 264 s.; Haqverdiyev, M.B. Müasir dövrdə ümumavropa təhlükəsizlik sistemi və Azərbaycan / M.B.Haqverdiyev. – Bakı: Elm və təhsil, – 2011. – 232 s.; Abdallı, H. Azərbaycan, dünya birliyi və Qarabağ problemi. – Bakı: Yeni Nəsil. – 2003. – 129 s.; İsmayıl, M. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti.Dərslik. / M.İsmayıl. III hissə, – Bakı: Bakı Universiteti nəşriyyatı, –2011. – 776 s.; Самедов, А.В. Азербайджан в современной системе международных отнощений (1993-2003 гг.) / А.В.Самедов. – Баку: Элм, – 2004. – 117 с.

[23] Həsənova, K.Z. Azərbaycan Respublikası ilə ATƏT-in Parlament Məclisinin əlaqələri // – Bakı: Tarix və onun problemləri, Xüsusi buraxılış. – 2009. №3, – s.223-230; yenə onun. Azərbaycan Respublikasının Avropa Şurasının Parlament Məclisi ilə əlaqələri // – Bakı: Tarix və onun problemləri. – 2009. №4, – s.235-239; yenə onun. Azərbaycan Respublikasının NATO Parlament Assambleyası ilə əlaqələri // – Bakı: Bakı Universitetinin Xəbərləri. – 2010. №3, – s.160-165; yenə

digər mənbələr əsasında Azərbaycan Respublikası Milli Məclisinin Avropa parlament təşkilatları ilə əlaqələri öyrənilmişdir.

Dissertasiya işi yazılarkən rus və ingilis tədqiqatçılarının əsərlərindən də istifadə edilmişdir. Beynəlxalq təşkilatların yaradılması, fəaliyyəti məsələləri B.A.Kurkin, S.İ.Çernyavskiy, V.E.Ulaxoviç, Böyük Britaniya tədqiqatçılarından P.Margaret və A.Karen, W.Duncan və b. əsərlərində[24] tədqiq edilmişdir.

Yuxarıda göstərilən ədəbiyyatların təhlili göstərir ki, tədqiq edilən problem indiyədək öyrənilməmişdir və kompleks şəkildə araşdırılması aktualdır.

Tədqiqat işi ən mötəbər mənbələr əsasında yazılmışdır. Dissertasiyanın yazılmasında istifadə edilən mənbələri bir neçə qrupa bölmək mümkündür. İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti, Ümummilli lider Heydər Əliyevin 46 cildlik əsəri problemin öyrənilməsində ən mötəbər mənbə rolunu oynamışdır.[25] Həmin kitablarda Heydər Əliyevin beynəlxalq təşkilatlarda etdiyi çıxışlar, keçirdiyi görüşlər, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində səyləri, Azərbaycan dövlətinin xarici siyasətinin məqsəd və vəzifələri, beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığın prinsipial əsasları öz əksini tapmışdır.

---

onun. Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində rolu // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2012. №2, – s.133-139; Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyası ilə əlaqələri // – Киев: Гилея. Научный вестник, – 2013. Выпуск 74 (№7), – c.115-117; yenə onun. Деятельность азербайджанской делегации в Парламентской ассамблее Совета Европы (ПАСЕ) // – Киев. Ученые записки Таврийского Национального Университета имени В.И.Вернадского, том 30 (69), – 2019. №3, – s.117-121 və s.

[24] Куркин, В.А. Международное право/ В.А.Куркин. – Москва: МГИУ, – 2008. – 192 с.; Улахович, В.Е. Международные организации / В.Е.Улахович. – Москва: АСТ, – 2004. – 400 с.; Margaret, P. İnternational organizations. The politics and processes of global governance / P.Margaret, A.Karen. –London: Second edition, – 2011.; Duncan, W. The European Union / W.Duncan. – Edinburgh: Edinburgh University Press. – 2008. – 314 p.

[25] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – 1997 - 2013.

Milli Məclisin Avropa parlament təşkilatları ilə əməkdaşlığının istiqamətlərini, mahiyyətini və əhəmiyyətini başa düşmək üçün vacib mənbə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin keçirdiyi görüşlərinin, nitqlərinin, müsahibələrinin və beynəlxalq təşkilatlarda çıxışlarının toplandığı kitablarıdır.[26]

Mənbələrin növbəti qrupuna sənədli mənbələr daxildir. Problemin araşdırılması üçün ən mötəbər mənbələr Azərbaycan Respublikası Milli Məclisinin arxivində saxlanılır. Milli Məclisin Avropa parlament təşkilatları ilə əlaqələrinin qurulması, əməkdaşlığın istiqamətlərinə dair sənəd və materialların əksəriyyəti elmi dövriyyəyə ilk dəfə gətirilmişdir.

Heydər Əliyev İrsini Araşdırma Mərkəzi tərəfindən nəşr edilmiş kitablarda toplanan nitqlər və müsahibələr də mənbə rolunu oynamışdır. Həmin kitablarda[27] Ümummillli lider Heydər Əliyevin Avropa İttifaqında və NATO-da keçirdiyi görüşlər, ATƏT-in Budapeşt, Lissabon, İstanbul sammitlərində iştirakı, Aİ-nin və Avropa Şurasının Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında qəbul etdiyi qətnamələr və tövsiyələr verilmişdir.

Azərbaycan Respublikasının beynəlxalq təşkilatların işində iştirakına dair Xarici İşlər Nazirliyi tərəfindən nəşr edilən sənədlər məcmuəsi problemi öyrənməkdə mənbə rolunu oynamışdır.[28]

---

[26] Əliyev, İ.H. İnkişaf – məqsədimizdir: [100 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, – 2008 - 2020.

[27] Bakı – Brüssel (Azərbaycan – Avropa İttifaqı münasibətləri)/ – Bakı: Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, – 2011. – 404 s.; Azərbaycan – NATO: tərəfdaşlıqdan başlanan yol (1994-2009) / – Bakı: Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, – 2009. – 340 s.; Azərbaycan vahid və bölünməz Avropada / – Bakı: Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, – 2011. – 436 s.; Heydər Əliyev. Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik / H.Əliyev. – Bakı: Əbilov Zeynalov və oğulları, – 2006. – 472 s.

[28] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi // – Bakı: Qoliaf Nəşriyyat Evi MMC, – 2010. – 1124 s.; II hissə. – Bakı: Qoliaf Nəşriyyat Evi MMC, – 2010. – 384 s; – 2002. I hissə. – Bakı: Qoliaf Nəşriyyat Evi MMC, – 2010. – 976 s.; II hissə. – Bakı: Qoliaf Nəşriyyat Evi MMC, – 2010. – 616 s.; – 2003. I hissə. – Bakı: Qoliaf Nəşriyyat Evi MMC, – 2010. – 668 s.; II hissə. – Bakı: Qoliaf Nəşriyyat Evi MMC, – 2010. – 672 s.; – 2004. I hissə. – Bakı: GARİSMA MMC, – 2009. – 816

Azərbaycan Respublikası Milli Məclisinin Avropa parlament təşkilatları ilə əlaqələrinə dair müəyyən sənəd və materiallar dövri mətbuat orqanlarında dərc edilmişdir. Mətbuatda dərc edilən müxtəlif xarakterli mənbələr problemi, əməkdaşlığın inkişaf mərhələlərini dərindən izləməyə imkan verir.

Dissertasiya işində beynəlxalq təşkilatların rəsmi saytlarından və bəzi dövri nəşrlərin elektron versiyalarından da istifadə edilmişdir. Mənbələrin öyrənilməsi, sistemləşdirilməsi və təhlili göstərir ki, mövcud problemin tədqiqi aktualdır.

Tədqiqatın xronoloji çərçivəsi 1991-2005-ci illəri əhatə edir. Tədqiqat işinin xronoloji çərçivəsinin başlanğıcı 1991-ci ildən götürülməsi Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi ilə bağlıdır. Tədqiqat işinin xronoloji çərçivəsinin son həddinin 2005-ci il müəyyən edilməsi isə həmin ildə III çağırış Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərlə əlaqədardır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi müəyyənləşdirilmiş xronoloji çərçivədə Azərbaycan Respublikası Milli Məclisinin Avropanın parlament təşkilatları ilə əlaqələrində oynadığı rolu və tutduğu yeri müəyyənləşdirmək, əməkdaşlığın məqsəd və vəzifələrini, xüsusiyyətlərini, istiqamətlərini və sahələrini kompleks araşdıraraq şərh, təhlil və müqayisəli təhlil etmək, ümumiləşdirilmiş nəticələr çıxarmaq və əməkdaşlığın gələcək inkişafına dair elmi əsaslandırılmış tövsiyələr irəli sürməkdir.

Dissertasiya işində qarşıya qoyulmuş başlıca məqsədə nail olmaqdan ötrü aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsinə cəhd edilmişdir:

- Azərbaycan Respublikası Milli Məclisinin Avropa parlament əlaqələri sistemində iştirakına dair müxtəlif dillərdə olan ən mötəbər mənbə və ədəbiyyatları toplamaq, öyrənmək, sistemləşdirmək və təhlil etmək;

---

s.; II hissə. – Bakı: GARİSMA MMC, – 2009. – 1016 s.; – 2005. I hissə. GARİSMA MMC, – 2009. – 440 s.

- Milli Məclisin Avropa inteqrasiya proseslərinə qoşulması və Avropa parlament təşkilatları ilə əməkdaşlığın inkişaf mərhələlərini, əməkdaşlığın əsas xüsusiyyətlərini araşdırmaq;

- Avropa parlament əlaqələri sistemində Azərbaycan Respublikası Milli Məclisinin tutduğu yeri və oynadığı rolu tədqiq etmək;

- Milli Məclisin ATƏT PA ilə demokratiya və insan hüquqlarının qorunması sahəsində əməkdaşlığının mahiyyətini və həyata keçirilməsi mexanizmini, həmin prosesin inkişaf dinamikasını tədqiq etmək;

- Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində ATƏT PA-nın fəaliyyətini öyrənmək;

- Parlamentarizm və demokratiyanın inkişafı sahəsində AŞPA ilə əməkdaşlığın tarixini şərh və təhlil etmək, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində AŞPA-nın fəaliyyətini araşdırmaq;

- Milli Məclisin QİƏT PM, MDB PA, Pİ, AP və NATO PA ilə əlaqələrinin qurulmasını, əməkdaşlığın başlıca istiqamətlərini, məzmununu araşdırmaq və şərh etmək;

- Milli Məclisin Avropa parlament əlaqələri sistemində oynadığı rola və tutduğu yerə dair elmi-nəzəri ümumiləşdirmələr etmək;

- Milli Məclisin Avropanın parlament təşkilatları ilə əməkdaşlığının daha da genişləndirilməsi və səmərəliliyinin artırılması üçün elmi əsaslandırılmış tövsiyələr irəli sürmək.

**Tədqiqatın metodları.** Dissertasiya işi tarix elmində qəbul edilmiş ümumi universal prinsip və metodlarının tətbiqi əsasında araşdırılmışdır. Mənbə və ədəbiyyatlar toplanmış, öyrənilmiş, sistemləşdirilmiş, tədqiq edilən problemə kompleks və sistemli yanaşılmış, məsələlər şərh, təhlil, müqayisəli və tənqidi təhlil edilmiş, ümumiləşdirmələr aparılmış, əməkdaşlığın başlıca meyilləri müəyyənləşdirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya mövzusunun aktual xarakter daşıdığını nəzərə alaraq aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

- Azərbaycan Respublikası Milli Məclisinin Avropa parlament təşkilatları ilə əlaqələrinin qurulmasını zəruri edən amillər, əməkdaşlığın inkişaf dinamikası, tutduğu yer və oynadığı rol;

- Milli Məclisin Avropa parlament təşkilatları ilə demokratiya və insan hüquqlarının qorunması istiqamətində əməkdaşlığının mahiyyəti və həyata keçirilməsi mexanizmi;

- Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində Avropa parlament təşkilatlarının fəaliyyəti.

**Tədqiqatın elmi yeniliyi.** İlk növbədə problemin qoyuluşu və tədqiqatın ideyası elmi yenilik səciyyəsi daşıyır. Konkret olaraq dissertasiya işinin elmi yeniliyi aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- Problemə dair müxtəlif dillərdə olan ən mötəbər mənbə və ədəbiyyatlar toplanmış, öyrənilmiş, sistemləşdirilmiş, təhlil, müqayisəli və tənqidi təhlil edilmişdir;

- Milli Məclisin Avropa parlament təşkilatları ilə əməkdaşlığının qurulması və inkişafının mərhələləri tədqiq edilmiş və belə bir elmi nəticə əldə edilmişdir ki, bu əməkdaşlıq mürəkkəb və çətin bir yol keçmiş, münasibətlərə bir sıra amillər, o cümlədən beynəlxalq təşkilatlarda mövcud olan ikili standartlar təsir etmişdir;

- Milli Məclisin Avropanın parlament təşkilatları ilə əməkdaşlığının əsas xüsusiyyətləri, məqsədləri və istiqamətləri araşdırılmış və belə bir elmi nəticəyə gəlinmişdir ki, əməkdaşlıqda başlıca məqsəd Azərbaycan Respublikasının dövlət müstəqilliyini möhkəmləndirmək, qanunvericilik sistemini təkmilləşdirmək, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün həmin təşkilatlar çərçivəsində fəaliyyət göstərmək və Azərbaycan haqqında həqiqətlərin yayılması olmuşdur;

- Avropa parlament əlaqələri sistemində Azərbaycan Respublikası Milli Məclisinin tutduğu yerin və oynadığı rolun tədqiqi nəticəsində belə bir elmi qənaət əldə edilmişdir ki, dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın qanunverici orqanı beynəlxalq çoxtərəfli əməkdaşlıqda özünəlayiq yer tutmuş və məqsədlərinə nail olmaq üçün əzmlə çalışmışdır;

- Milli Məclisin ATƏT PA ilə demokratiya və insan hüquqlarının qorunması istiqamətində əməkdaşlığının mahiyyəti və həyata keçirilməsi mexanizmi, həmin prosesin inkişaf dinamikası tədqiq edilmiş, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində ATƏT PA-nın fəaliyyəti öyrənilmişdir;

- Parlamentarizm və demokratiyanın inkişafı sahəsində AŞPA ilə əməkdaşlığın tarixi şərh və təhlil edilmiş, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində AŞPA-nın fəaliyyəti və qəbul etdiyi sənədlər öyrənilmişdir;

- QİƏT PM, MDB PA, Pİ, AP və NATO PA ilə əlaqələrin qurulması, əməkdaşlığın başlıca istiqamətləri və məzmunu araşdırılmışdır;

- Milli Məclisin Avropanın parlament təşkilatları ilə əməkdaşlığının daha da genişləndirilməsi və səmərəliliyinin artırılması üçün elmi əsaslandırılmış tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin başlıca müddəaları elmi-nəzəri əhəmiyyət daşıyır. Tədqiqatın materiallarından və əsas müddəalarından problemə dair gələcək elmi araşdırmalarda, parlament diplomatiyası, beynəlxalq münasibətlər tarixinə həsr edilmiş ümumiləşdirilmiş əsərlər, dərslik, dərs vəsaitləri və proqramların hazırlanmasında geniş istifadə oluna bilər.

Tədqiqat işinin materialları və elmi müddəaları praktik əhəmiyyət daşıyır. Onlardan ali məktəblərin müvafiq fakültələrində mühazirə və seminarlarda, ixtisas kurslarının aparılmasında, Azərbaycan Respublikasının xarici siyasətinin və parlament diplomatiyasının təbliğində istifadə etmək olar.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın məzmunu və əsas müddəaları müəllifin Azərbaycanda və xaricdə nəşr etdirdiyi elmi məqalələrində əksini tapmışdır. Bundan əlavə, tədqiqatın ayrı-ayrı məsələlərinə dair tələbə və magistrantların, doktorantların və gənc tədqiqatçıların respublika elmi konfranslarında və beynəlxalq elmi konfranslarda məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni

və müasir tarixi kafedrasında yerinə yetirilmiş və müdafiəyə tövsiyə olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi Giriş - 15 s. (s.3-18), üç fəsil (s.19-145), o cümlədən 7 yarımfəsil - 1.1. - 24 s. (s.19-43), 1.2. - 10 s. (s.43-53), 2.1. - 23 s. (s.53-76), 2.2. - 37 s. (s.76-113), 3.1. - 8 s. (s.113-121), 3.2. - 5 s. (s.121-126), 3.3. - 19 s. (s.126-145), Nəticə - 10 s. (s.146-156) və İstifadə edilmiş ədəbiyyat siyahısından - 17 s. (s.157-174) ibarət olmaqla cəmi - 319 min 405 işarədən ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, istifadə edilmiş mənbə və ədəbiyyatlar geniş təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri, elmi-nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilmiş, metodoloji əsası, elmi yeniliyi və müdafiəyə çıxarılan əsas müddəalar göstərilmişdir.

Dissertasiyanın iki yarımfəsildən ibarət olan birinci fəsli "**Avropa parlament təşkilatlarında Azərbaycan Respublikası Milli Məclisinin iştirakının məqsəd və vəzifələri**" adlanır. Fəslin **"Avropa parlament təşkilatlarının səlahiyyətləri"** adlanan birinci yarımfəslində beynəlxalq parlament təşkilatlarının yaradılmasını zəruri edən amillər, onların fəaliyyətinin tarixi-nəzəri əsasları araşdırılmış, beynəlxalq təşkilatlara dövlətlərin xarici siyasət fəaliyyətlərini yerinə yetirən vasitə kimi yanaşılmışdır. Göstərilmişdir ki, beynəlxalq parlament təşkilatlarının məsləhətçi səlahiyyətləri fikir formasında bir sıra məsələlər, o, cümlədən hökümətlərarası orqanın fəaliyyəti, digər beynəlxalq təşkilatlarla fəaliyyətinin əlaqələndirilməsi və əməkdaşlığı barədə saziş, hökümətlərarası işçi proqramı, təşkilata yeni üzvlərin qəbulu və çıxarılması məsələlərini əhatə edir.[29] Qeyd olunmuşdur ki, XX əsrin ortalarından başlayaraq yaranan və fəaliyyətini genişləndirən

[29] İmanova, S.M. Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əlaqələri (1991-1998-ci illər) / S.M.İmanova. − Bakı: Adiloğlu, − 2004. – 172., – s. 47, 49, 55.

beynəlxalq parlament təşkilatlarının üzv dövlətlər üçün məcburi xarakterə malik qərarlar qəbul etmək səlahiyyətləri yoxdur. [30] Yarımfəsildə həmçinin Azərbaycanın üzv olduğu beynəlxalq parlament təşkilatlarının yaranması, məqsəd və vəzifələri, strukturu araşdırılmışdır.

**"Azərbaycan Respublikası Milli Məclisinin Avropa parlament təşkilatları ilə əməkdaşlığını zəruri edən amillər, məqsədləri və formaları"** adlanan ikinci yarımfəsildə Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əlaqələrini zəruri edən amillər təhlil edilmişdir. Qeyd edilmişdir ki, bu, hər şeydən əvvəl, Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi, suveren dövlətlər sırasına qoşulması ilə əlaqədar idi. Çünki demokratik dövlət quruculuğu, insan hüquqlarının qorunması, parlamentarizmin inkişafı, söz, mətbuat azadlığı və digər məsələlərə dair qanunların qəbul edilməsi üçün beynəlxalq təşkilatların qanunvericilik təcrübəsindən faydalanmağa ehtiyac duyulurdu.

Avropanın parlament təşkilatları ilə əlaqələrin qurulmasını zəruri edən başlıca amillərdən biri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə dair xarici ölkələrdə Azərbaycanla bağlı yanlış fikirlərini aradan qaldırmağın vacibliyi idi. [31]

Qeyd etmək lazımdır ki, Ümummilli lider Heydər Əliyev parlamentarizm ənənələrinin inkişafına Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi mövqeyindən yanaşaraq, bu sahəni dövlətçiliyin ayrılmaz sahəsi hesab edirdi.[32]

Dissertasiya işinin iki yarımfəsildən ibarət olan ikinci fəsli **"ATƏT və Avropa Şurası Parlament Assambleyaları ilə əməkdaşlıq"**adlanır. "**Parlamentarizm, demokratiya və insan hüquqlarının qorunması sahəsində əməkdaşlıq"**adlanan birinci yarımfəsildə 1991-2005-ci illərdə Azərbaycan Respublikasının Milli

[30] Axundov N., Qasımov M.Azərbaycan və beynəlxalq parlament təşkilatları. Bakı: Mütərcim, – 1996. – 88 s., – s.50.
[31] Parlament tariximizin Heydər Əliyev dövrü / – Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, – 2013. – 559 s., – s.525, 531.
[32] Heydər Əliyev və Müasir Azərbaycan parlamenti // – Bakı: Milli Məclis jurnalı, Xüsusi buraxılış, – 2008, – 12-14 s.

Məclisinin demokratiya və insan hüquqlarının qorunması sahəsində bəzi beynəlxalq konvensiya və müqavilələrə qoşulması, ATƏT və onun qurumları ilə geniş əməkdaşlığın qurulması və inkişaf etdirilməsi, AŞ-na üzv olmaq üçün həyata keçirilən mühüm fəaliyyətdən bəhs olunmuşdur. Qeyd edilmişdir ki, ATƏT PA ilə əməkdaşlıqda başlıca məqsəd qanunvericilik sahəsində Avropa təcrübəsinin öyrənilməsi, hazırlanması, qəbul edilməsi və tətbiqi mexanizmini daha da yaxşılaşdırmaq idi.

Tədqiq edilən illərdə Azərbaycan Respublikasında demokratikləşmə prosesində bu təşkilat ilə əməkdaşlıq əsasən aşağıdakı formalarda həyata keçirilmişdir: seçkilərə hazırlıq üçün seminarların keçirilməsi, seçkilərin uzunmüddətli və qısamüddətli monitorinqi, seçkilərin yekunlarına həsr edilmiş rəylərin verilməsi və nəticələrinin təhlil edilməsinə həsr edilmiş seminarların keçirilməsi, insan alverinə qarşı mübarizə, milli azlıqların hüquqlarının qorunması, qaçqın və məcburi köçkünlərin problemlərinin həll edilməsi, gender məsələləri və b. ATƏT və onun qurumları 1995-ci ildə birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərin nəticəsində çoxpartiyalı parlamentin formalaşmasını və ümumxalq referendumu yolu ilə ilk müstəqil konstitusiyanın qəbul edilməsini müsbət qiymətləndirdilər. Rəylərdə Konstitusiyada insan hüquq və azadlıqlarının təmin edilməsi məsələlərinə geniş yer verilməsi xüsusi qeyd edilirdi. [33] 2000-ci ilin iyulunda ATƏT-in fəaliyyətdə olan sədri xanım Benita Mariya Ferrero Valdnerin Azərbaycan Respublikasına səfəri zamanı Bakıda ATƏT-in ofisi açıldı. Ofis qarşılıqlı əlaqələrin daha çevik qurulmasına kömək edirdi. Bundan sonra ATƏT-in Parlament Assambleyası ilə əməkdaşlıq daha da genişləndi. [34] ATƏT PA ilə əməkdaşlıq Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsinə kömək etmişdir. Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını PA qəbul etdiyi

[33] Gülalıyeva, A. Azərbaycan Respublikasının Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında iştirakı: / Siyasi elmlər üzrə fəlsəfə doktoru dissertasiyası/ – Bakı, – 2007. – s.158.

[34] Qasımlı, M.C. Azərbaycanın xarici siyasəti (1991-2003): [2 cilddə] / M.Qasımlı, – Bakı: Mütərcim, – c.2. – 2015. – 664 s., – s.406.

sənədlərdə bir daha təsdiq etdi. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT PA-nın məruzəçisi təyin edilmişdir.Onun hazırladığı hesabatlarda Azərbaycan ərazilərinin işğal edildiyi, işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma və məcburi köçkünlərin vəziyyəti öz əksini tapmışdır.

Bu yarımfəsildə Azərbaycanın AŞPA ilə əməkdaşlıq məsələləri də araşdırılmışdır. Qeyd edilmişdir ki, Azərbaycan Respublikası Milli Məclisinin AŞPA ilə qarşılıqlı əlaqələrinin yaranması, inkişafı, formaları, məqsədləri beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər və bu təşkilatın yarım əsrdən artıq bir müddətdə toplanmış təcrübəsi əsasında qurulmağa başlandı. Azərbaycanın ümumavropa strukturları ilə əlaqələrinin əsasları parlamentin "xüsusi qonaq statusu" almaq üçün AŞPA-ya müraciət etməsi ilə qoyuldu.

AŞPA-nın Azərbaycan Respublikası ilə əlaqələrinin formalarından biri Azərbaycanda keçirilən seçkilərə müşahidəçi göndərmək olmuşdur. AŞPA 1995-ci ilin noyabrında Azərbaycan Respublikası Milli Məclisinin dəvəti ilə ali qanunvericilik orqanına keçirilən seçkilərdə müşahidəçi qismində iştirak etmişdir.[35] AŞPA nümayəndələri 1998-ci ilin oktyabrında prezident seçkilərini, 1999-cu ilin dekabrında bələdiyyə seçkilərini, 2000-ci ilin noyabrında parlament seçkilərini, 2001-ci ilin yanvarında müəyyən dairələrdə keçirilən təkrar parlament seçkilərini müşahidə etmişlər.

Yarımfəsildə qeyd edilir ki, AŞPA-nın nümayəndə heyətlərinin Azərbaycana səfəri və Prezident Heydər Əliyevlə görüşündən sonra 1996-cı il iyunun 28-də Azərbaycan Respublikasına, o cümlədən Milli Məclisə AŞPA-da "xüsusi dəvət edilmiş qonaq" statusu verildi.[36] Bununla Azərbaycan parlamenti ümumavropa problemlərinin müzakirəsində birbaşa iştirak etmək imkanı

---

[35] Avropa Şurası və Azərbaycan. // AŞPA ümumi sənədlər. Azərbaycan Respublikası Milli Məclisinin Aparatı. Beynəlxalq münasibətlər şöbəsi. 2000. ARMMA: fond 2941, vərəq – 5.

[36] Avropa Şurası Parlament Assambleyası Azərbaycanın Avropa Şurasına üzvlük xahişi ilə bağlı 222 (2000) saylı Rəy. AŞPA Monitorinq Azərbaycan üzrə həmməruzəçilərinin ilkin məruzə layihəsi // Azərbaycan Respublikası Milli Məclisinin Aparatı. Beynəlxalq münasibətlər şöbəsi. 2002. ARMMA: fond 2941, vərəq – 42.

qazanırdı.[37] Yarımfəsildə vurgulanır ki, 1998-ci ildə fevralın 3-də Prezident Heydər Əliyev ölüm hökmünün ləğv edilməsi haqqında Milli Məclisə müraciət etdi. Müraciətə baxan Azərbaycan Respublikası Milli Məclisi1998-ci ildə ölüm hökmünün ləğvinə dair qərar qəbul etdi. [38]Ölüm cəzasının ləğvi tarixi hadisə olmuşdur. Bu Azərbaycan Respublikasında cinayət hüququ siyasətinin humanistləşdirilməsində mühüm addım idi.

İlham Əliyevin rəhbərliyi altında Milli Məclisin nümayəndə heyəti AŞPA-da mühüm sənədlərin qəbuluna nail olmuşdur.2001-ci il yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasının və onun strukturu olan PA-nın tamhüquqlu üzvlüyünə qəbul edildi. AŞPA-nın sessiyasında nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkədə aparılan islahatlardan bəhs etdi və Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllində ikili standartlara yol verilməməsinin vacibliyini bildirdi.[39]

İkinci fəslin **"Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü məsələsinin müzakirəsi"** adlanan yarımfəslində Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin ATƏT PA və AŞPA sessiyalarında müzakirəsi, bu istiqamətdə qəbul edilən sənədlər, sözügedən problemə həmin beynəlxalq qurumların münasibəti şərh edilmişdir.

Vurgulanır ki, 1994-cü ilin may ayında Dağlıq Qarabağ münaqişəsində atəşkəs elan edildikdən sonra Azərbaycan parlamenti səylərini daha da artırdı. 1995-ci il iyulun 4-5-də ATƏT Parlament Assambleyasının Kanadada Ottava şəhərində keçirilən sessiyasının yekun sənədində Azərbaycan torpaqlarını zəbt etmiş erməni hərbi qüvvələrinin bu əraziləri qeyd-şərtsiz tərk etmələri barədə BMT TŞ-nın 1993-cü ildə qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrin və Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin

---

[37] Qasımlı, M.C. Azərbaycanın xarici siyasəti (1991-2003): [2 cilddə] / M.Qasımlı, – Bakı: Mütərcim, – c.2. – 2015. – 664 s., – s.419.

[38] Avropa Şurası və Azərbaycan// mfa.gov.az

[39] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi // – Bakı: Qoliaf Nəşriyyat Evi MMC, – 2010. – 1124 s., – s.107-111.

genişləndirilməsinə dair ATƏT-in çoxmillətli sülhü qoruyan hərbi hissələrinin münaqişə bölgəsinə göndərilməsi barədə qərarın yerinə yetirilməsinin vacibliyi vurğulanmışdır. ATƏT-in 1996-cı il dekabrın 2-3-də Lissabonda keçirilən zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev etdiyi nitqində münaqişənin tənzimlənməsində bu təşkilatın rolu üzərində dayanmış və nizamasalmada mümkün kompromisi aşağıdakı kimi tədqim etmişdir: Azərbaycan Respublikasının ərazi bütövlüyü; Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağ regionunun bütün əhalisi üçün təhlükəsizliyin təminatı. [40]

Yarımfəsildə qeyd olunur ki, ATƏT PA-nın 2004-cü il iyulunda Edinburqda keçirilən sessiyasında Azərbaycan nümayəndə heyəti beynəlxalq hüquq normalarına, BMT nizamnaməsinə və insan hüquqlarının digər aspektlərinə münasibətdə ikili standartlara yol verilməməsi, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyə səsləyən çağırış etdi. [41] Bu, Azərbaycanın çoxtərəfli parlament diplomatiyasının uğurlu addımlarından biri olmuşdur.

Azərbaycan Respublikası Milli Məclisi AŞPA-ya tamhüquqlu üzv qəbul olunduqdan sonra qarşısına qoyduğu başlıca məqsədlərdən biri Ermənistanın işğalçı dövlət olması, hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə siyasi və hüquqi qiymət verilməsi olmuşdur. 1994-cü ilin noyabrında AŞPA Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 1047 saylı qətnaməsini qəbul etmişdir. Bu, AŞPA-nın Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi ilk qətnamə idi.[42] Qeyd etmək lazımdır ki, 1047 saylı qətnamə problemə ədalətli qiymət vermir və onun mahiyyətini təhrif edirdi. 1997-ci ilin aprelində bu təşkilat Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair daha bir qətnamə qəbul etdi. "Cənubi Qafqazda

[40] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c.8. – 1998, – 488 s., – s.89-93.

[41] Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar / – Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, – 2004. – 542 s., – s.192.

[42] Ermənistan Avropa Şurası üçün işğalçı dövlətdir // Azərbaycan. – 2005, 27 yanvar.

münaqişələrə dair” 1119 saylı qətnamədə Cənubi Qafqazda münaqişələrlə əlaqədar sərhədlərin toxunulmazlığı, beynəlxalq sülhməramlı qüvvələrin vasitəçiliyi ilə münaqişə zonalarında təhlükəsizliyin təminatı, tərəflər arasında danışıqlardan sonra Abxaziya və Dağlıq Qarabağ üçün geniş muxtariyyət statusu, qaçqınlar və məcburi köçkünlərin öz yerlərinə qayıtması ilə bağlı prinsiplər əks olunmuşdu.[43]

Azərbaycan nümayəndə heyətinin fəaliyyəti nəticəsində AŞPA-da 43 dövlətin nümayəndələrinin iştirakı ilə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən “ATƏT-in Minsk konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi ətrafında münaqişə” adlı 1416 saylı qətnamə və 1690 saylı tövsiyə (2005) qəbul olundu.[44] İki ölkənin xalqları arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi 1416 saylı qətnamənin əsas müddəalarından biri idi.[45]

Dissertasiyanın **“Azərbaycan parlamentinin digər parlament təşkilatları ilə əlaqələrinin qurulması və inkişaf dinamikası”** adlanan üçüncü fəsli üç yarımfəsildən ibarətdir. **“Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi ilə əməkdaşlıq”** adlanan birinci yarımfəsildə Azərbaycanın təşkilatın plenar sessiyaları və komitələrinin iclaslarında iştirakından bəhs olunur. Qeyd olunur ki, Milli Məclisin nümayəndə heyəti Parlament Məclisinin 1994-2005-ci illərdə keçirilən toplantılarında iştirak edərək, Ermənistanın hərbi təcavüzünün ağır nəticələri barədə faktlar iştirakçıların diqqətinə çatdırmışdır. Məsələn,1996-cı ilin iyun ayında Parlament Məclisinin Bakıda keçirilən sessiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev geniş və dərin məzmunlu nitq söyləyərək Azərbaycan Respublikasının bu təşkilat ilə əməkdaşlığa xüsusi diqqət yetirdiyini, parlamentlərin əməkdaşlıqda böyük rol oynadığını vurğulamışdır.[46]

[43] Hüseynova, H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində / H.Hüseynova. – Bakı: Hərbi nəşriyyat, – 1998. – 280 s., – s.147.
[44] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / Bakı: Poliart MMC, – 2017. – 904 s., – s. 580.
[45] Biz dialoq tərəfdarıyıq // – Bakı: Milli Məclis jurnalı, – 2014, yanvar-fevral, – s.20-23.
[46] Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi //Azərbaycan. – 1996, 13 iyun.

2001-ci ilin iyununda QİƏT Parlament Məclisinin XVII plenar sessiyasının Bakı şəhərində keçirilməsi əhəmiyyətli olmuşdur.[47] Prezident Heydər Əliyev QİƏT Parlament Məclisinin forumunun ikinci dəfə Bakıda keçirilməsini mühüm hadisə kimi dəyərləndirmişdir.[48]

Qeyd olunur ki, tədqiq edilən illərdə QİƏT Parlament Məclisinin hərbi münaqişələr probleminə toxunmamaq qərarına baxmayaraq, Azərbaycan burada da haqq səsinin beynəlxalq ictimaiyyət tərəfindən eşidilməsinə nail olmuşdur.[49]

Fəslin **"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası ilə əlaqələr"** adlanan ikinci yarımfəslində vurgulanır ki, Qırğızıstanın paytaxtı Bişkekdə MDB PA çərçivəsində mayın 12-də atəşin dayandırılmasına dair qərar qəbul edildi.[50]

1998-ci ildə MDB PA "Terrorizmlə mübarizə haqqında" model qanunu bəyəndi. MDB iştirakçısı olan dövlətlərin parlamentləri, o cümlədən Azərbaycan Respublikasının Milli Məclisi ona uyğun qanun qəbul etdi. MDB PA-nın 1999-cu il oktyabrın 16-da qəbul etdiyi bəyanatda dövlətlərin suverenliyi, ərazi bütövlüyü tanınırdı.[51]

Tədqiqatdan aydın olur ki, MDB PA Azərbaycan Respublikası ilə qanunyaradıcılığı sahəsində təcrübə mübadiləsinə xüsusi yer vermişdir. Assambleya tərəfindən qəbul olunmuş Mülki Məcəllə, Cinayət Məcəlləsi və Cinayət-Prosesual Məcəllə, Kitabxana Məcəlləsi, Ekoloji təhlükəsizlik, Səhmdar Cəmiyyətlər, Əməyin Mühafizəsi, Diplomatik xidmət, Təhsil haqqında qanunların

---

[47] QİƏPM-nin yazışmaları // ARMMA, Beynəlxalq münasibətlər şöbəsi, fond 2941, vərəq – 3.

[48] Müstəqil dövlətimiz və parlamentimiz / – Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, – 2001. –552 s., – s.272.

[49] Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əlaqələri/ – Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, – 2004. – s.117.

[50] Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar / – Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, – 2004. – 542 s., – s.154.

[51] Azərbaycan Respublikasının Milli Məclisi və beynəlxalq parlament təşkilatları // – Bakı: Milli Məclis jurnalı, – 2007. №2, – s.51.

hazırlanmasında Azərbaycan Respublikası Milli Məclisi deputatları fəal rol oynamışlar.[52]

Fəslin **"Parlamentlərarası İttifaq, Avropa Parlamenti və NATO Parlament Assambleyası ilə əlaqələrin qurulması və inkişafı"** adlanan üçüncü yarımfəslində Azərbaycanın Parlamentlərarası İttifaq, Avropa Parlamenti və NATO Parlament Assambleyası ilə əlaqələrinin qurulması tədqiq olunmuşdur.

Qeyd edilmişdir ki, Azərbaycan Respublikası Parlamentlərarası İttifaqa 1993-cü il aprelin 12-17-də Dehlidə keçirilən 89-cu Assambleyada üzv oldu. [53] Tədqiq edilən illərdə Azərbaycan nümayəndə heyəti Parlamentlərarası İttifaqın kürsüsündən Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə reallıqların dünya parlamentlərinə çatdırılmasını əsas vəzifə kimi qarşıya məqsəd qoymuş və bu istiqamətdə vacib işlər görmuşdür.

Azərbaycan Respublikası Milli Məclisi və Avropa Parlamenti arasında əməkdaşlıq "Aİ – Azərbaycan Parlament Əməkdaşlığı Komitəsi" (PƏK) vasitəsilə həyata keçirilmişdir. Aİ-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsi Azərbaycan Respublikası və Aİ arasında Tərəfdaşlıq və Əməkdaşlıq sazişinə  uyğun olaraq fəaliyyət göstərmişdir. Parlament Əməkdaşlıq Komitəsi Azərbaycan Respublikası Milli Məclisi ilə Avropa Parlamenti üzvləri arasında fikir mübadiləsini gerçəkləşdirmək üçün forum olmuşdur.

2000-ci ilin aprelində Brüsseldə Aİ – Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin ilk təsis iclasının keçirilməsi araşdırılmışdır. Təsis iclasının yekunu olaraq qəbul edilmiş bəyanat və tövsiyələrdə 1999-cu il iyunun 22-də Lüksemburqda keçirilən birinci Aİ – Cənubi Qafqaz sammitinin, eləcə də 1999-cu ilin oktyabrında Lüksemburqda keçirilmiş birinci Aİ-Azərbaycan Əməkdaşlığı Şurasının nəticələrinin əhəmiyyəti qeyd olunurdu.[54]

---

[52] Müstəqil dövlətimiz və parlamentimiz / – Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, – 2001. –552 s., –  s.264.

[53] Parlamentlərarası İttifaq 98-ci Parlamentlərarası konfrans // Azərbaycan Respublikası Milli Məclisinin Aparatı. Beynəlxalq münasibətlər şöbəsi, 1998. ARMMA: f ond 2941, vərəq –  32.

[54] Avropa İttifaqı – Azərbaycan Parlament Əməkdaşlığı Komitəsində fəaliyyətə dair arayış // Azərbaycan Respublikası Milli Məclis Aparatının Beynəlxalq Münasibətlər Şöbəsinin işçi sənədlərindən. ARMMA:  f ond 2941, vərəq – 3.

Aİ – Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin 2002-ci ilin fevralında Brüsseldə keçirilən iclasında qəbul olunmuş bəyanat və tövsiyələrdə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Aİ tərəfindən Azərbaycanın təkliflərinin qəbul edilməsinə, eləcə də Bakı – Naxçıvan – Yerevan dəmiryolu boyunca işğal olunmuş ərazilərdən Ermənistanın qüvvələrini çıxarmasına, dəmiryolunun bərpasına, münaqişələrin həlli və əməkdaşlığın bərpa edilməsinə dair tədbirlər paketinə Ermənistanın laqeyd qalması təəssüf hissi ilə qeyd olunmuş və yaranmış vəziyyətdən çıxmaq imkanlarının araşdırılmasına çağırış öz əksini tapmışdı.[55]

Tədqiqat zamanı aydın olur ki, Avropanın təhlükəsizlik strukturlarına inteqrasiya olmaq, Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini tənzimlənmək, həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, demokratik təsisatlar yaratmaq və müxtəlif sahələrdə islahatlar aparmaq bu əməkdaşlığı zəruri etmişdir. 1999-cu ilin may ayında NATO Parlament Assambleyasının Polşada keçirilən sessiyasında Azərbaycan Respublikası təşkilatda müşahidəçi statusu əldə etməsi təklif olunmuşdur.[56]

Azərbaycan nümayəndə heyəti NATO Parlament Assambleyasının bütün tədbirlərində xüsusilə də Rouz-Rout seminarında fəal iştirak etmişdir. Proqramın məqsədi dövlətlərdə silahlı qüvvələr və ordu quruculuğu proseslərinə demokratik nəzarətin həyata keçirilməsi ilə əlaqədar fikir mübadiləsinin aparılmasından ibarət idi.

NATO Parlament Assambleyasının 2002-ci ilin noyabrında İstanbulda keçirilən sessiyası zamanı Azərbaycan Respublikasına təşkilatda assosiativ üzv statusunun verilməsi barədə qərar qəbul edilməsi araşdırılmışdır.[57] Azərbaycan parlament nümayəndə heyəti

[55] Yenə orada, vərəq – 5.

[56] NATO PA-nın sənədləri. // Azərbaycan Respublikası Milli Məclisinin Aparatı, Beynəlxalq münasibətlər şöbəsi. 2003. ARMMA: fond 2941, vərəq – 5.

[57] Azərbaycan NATO PA-nın assosiativ üzvüdür // Azərbaycan. – 2002, 20 noyabr.

NATO Parlament Assambleyasının bütün komitə iclaslarında iştirak etmək, məruzələrə əlavələr etmək hüququ qazanmışdır.[58]

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat zamanı əldə edilmiş mühüm nəticələr verilmiş və ümumiləşdirmələr aparılmışdır.

**Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Azərbaycan Respublikası ilə ATƏT-in Parlament Məclisinin əlaqələri // – Bakı: Tarix və onun problemləri, Xüsusi buraxılış. – 2009. №3, – s.223-230.
2. Azərbaycan Respublikasının Avropa Şurasının Parlament Məclisi ilə əlaqələri // – Bakı: Tarix və onun problemləri. – 2009. №4, – s.235-239.
3. Azərbaycan Respublikasının NATO Parlament Assambleyası ilə əlaqələri // – Bakı: Bakı Universitetinin Xəbərləri. – 2010. №3, – s.160-165.
4. Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının beynəlxalq münasibətlərdə rolu // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibəti ilə Tarix fakültəsi professor-müəllim heyətinin və magistrantlarının elmi-praktik konfransının materialları. – Bakı: – 2010, – s. 319-322.
5. Azərbaycan Respublikasının Qara dəniz İqtisadi Əməkdaşlıq Parlament Məclisində (QİƏPM) fəaliyyəti // Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları, – Bakı: 2011, – s. 220-221.
6. Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində rolu // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2012. №2, – s.133-139.
7. Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti (AQS) və Azərbaycan // – Bakı: Dirçəliş - XXI əsr jurnalı. – 2012. № 169-172, – s.240-244.
8. Azərbaycan Respublikası Milli Məclisinin Parlamentlərarası İttifaqla (Pİ) əlaqələri // Ümummilli lider Heydər Əliyevin

[58] Azərbaycan Respublikası – NATO Parlament Assambleyası əlaqələri // NATO PA sənədləri. 2002. ARMMA: fond 2941, vərəq – 5.

anadan olmasının 87-ci ildönümü münasibəti ilə Tarix fakültəsi professor-müəllim heyətinin və magistrantlarının Respublika elmi-praktik konfransının materialları, – Bakı: 2013, – s.99-102.
9. Parlamentlərarası İttifaqın fəaliyyəti // Doktorantların və Gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları. – Bakı: 2013, – s.180-181.
10. Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyası ilə əlaqələri // – Киев: Гилея. Научный вестник, – 2013. Выпуск 74 (№7), – с.115-117.
11. Azərbaycan Respublikası Milli Məclisinin Parlamentlərarası İttifaqla (Pİ) münasibətləri // Umumilli Lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü münasibətilə magistrantların və gənc tədqiqatçıların Respublika elmi-praktik konfransının materialları, – Bakı: 2013, – s.99-102.
12. Heydər Əliyev və müasir dünya // Umummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Heydər Əliyev və Müstəqil Azərbaycanın uğurları" Respublika elmi konfransının materialları, – Bakı: 2016, – s.104-109.
13. Azərbaycan Respublikasının Milli Məclisinin Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyası (MDB PA) ilə əlaqələri // – Bakı: Sivilizasiya. Bakı Avrasiya Universiteti. Elmi-nəzəri jurnal, c.VI, – 2017. №1 (33), – s.195-200.
14. Azərbaycan Respublikasının NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirakına dair // – Bakı: AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, – 2017. № 2, – s.119-124.
15. Azərbaycanın AŞPA ilə münasibətlərinin əsas istiqamətləri // AMEA Qafqazşünaslıq institutu. "Qafqaz böyük sarsıntılar şəraitində: tarixi təcrübə, müasir dövr və perspektivlər" Respublika elmi konfransı, – Bakı: 2017, – s.40-41.
16. Azərbaycan Respublikasının NATO-nun Sülh naminə tərəfdaşlıq (SNT) proqramı çərçivəsində əməkdaşlığı // AMEA Qafqazşünaslıq İnstitutu. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş. "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" beynəlxalq elmi konfrans, – Bakı: 2018, may 23-24.

17. Azərbaycan Respublikasının Avropa inteqrasiya proseslərinə qoşulması. Avropa İttifaqı (Aİ) ilə münasibətlər // – Bakı: AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası, – 2018. №4, – s.56-63.
18. Деятельность азербайджанской делегации в Парламентской ассамблее Совета Европы (ПАСЕ) // – Киев. Ученые записки Таврийского Национального Университета имени В.И.Вернадского, том 30 (69), – 2019. №3, – s.117-121.
19. Avropa Parlamentinin Cənubi Qafqaz siyasəti // AMEA Qafqazşünaslıq İnstitutu. Qafqazşünasların II Beynəlxalq Forumu, – Bakı: – 2019, may 23-24.
20. Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi ilə münasibətlərinin inkişaf tarixindən// – Bakı: Bakı Avrasiya Universiteti. Sivilizasiya. Elmi-nəzəri jurnal, c.8, – 2019. №3(43), – s.123-130.
21. Европейский парламент как демократическое учреждение Европейского Союза // Ученые записки. (Серия Исторические науки) Таврийский Национальный Университет Им.В.И.Вернардского 2020. Том 31(70),№4 s.138-141.

Dissertasiyanın müdafiəsi 28 oktyabr 2022-ci il tarixində saat 14:00-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurasının iclasında keçiriləcək.
Ünvan: AZ-1148, Bakı şəhəri, Z. Xəlilov küç., 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.
Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.
Avtoreferat 28 sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.09.202

Kağızın formatı: 60x84 1/16

Həcm: 319405 işarə

Tiraj: 100